# TƏBİƏT GÖZƏLLİKLƏRİ FÜZULİ POEZİYASININ QAYNAĞI KİMİ

**Asif Hacıyev**

*Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi məsləhətçisi,*

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

a.haciyev@arti.edu.az

Poeziya insan və təbiət gözəlliyinə heyranlığın ifadəsindən yaranmış elə bir ecazkar yaradıcılıq sahəsidir ki, hər bir şairin söz dünyasında fərqli çalarla əksini tapır. Bitib-tükənməyən duyğulardan qaynaqlanan bu sənətin inkişafında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin də ayrıca yeri vardır. Hazırda anadan olmasının 530 illiyi böyük sevgi ilə qeyd edilən dahi şairimiz Məhəmməd Füzulinin yaradıcılığı da bu baxımdan özünəməxsus cəhətləri ilə seçilir.

Bilindiyi kimi, Füzuli, ilk növbədə, məhəbbət şairidir. Onun poetik düşüncəsində aşiq obrazı, hiss və duyğuları aparıcı mövqe tutur. Eşqi bənzərsiz boyalarla tərənnüm etməklə "könül mülkünün sultanı" ali mərtəbəsinə yüksələn sənətkarın lirik əsərləri bu baxımdan daha çox diqqəti çəkir. Xüsusilə, qüdrətli söz ustadının qəzəllərində yara qovuşmaq həsrətilə alışıb-yanan aşiqin istər vüsal sevinci, istər hicran qəmi, onun ağrı-acısı, əzabı təbiət hadisələri ilə müqayisədə bütün incəliyi ilə təsvir edilmişdir. Şairin yaradıcılığının dərin tədqiqatçılarından sayılan görkəmli alim və yazıçımız Mir Cəlalın fikrincə, "*o, təbiətin gözəlliklərini ən yaxşı, ətraflı duyub əhatə edən, incə həssas bir müşahidəyə malik şairidir*" [8, s. 112]. Həqiqətən də, ən zərif, həssas duyğuların obrazlı ifadəsində "qəlb şairi" məhz təbiət gözəllikləri və onun rəngarəng hadisələrindən bəhrələnməklə bənzərsiz bədii sənət əsərləri yaradır. Bu yanaşma heç də təsadüfi olmayıb, sənətkarın "*elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur*" [5, s. 29] yaradıcılıq konsepsiyanın özəyində durur. Real təbiət hadisələrinin seyrinə dalan şair onların mahiyyətinə vararaq elə valehedici poetik mənzərələr yaradır ki, oxucusunu özünə cəzb etməklə sanki sehrləyir. Təəccüblü deyil ki, hələ də bu cazibənin təsir dairəsindəyik. Aydınlıq üçün bəzi nümunələrə diqqət yetirək:

Olur rüxsarına gün, ləlinə gülbərgi-tər aşiq,

Sənə əksik degil, gögdən yağar, yerdən bitər aşiq.

... Çəməndə payibusindən olubdur səbzələr xürrəm,

Haman bir səbzəcə olmağə aləmdə bitər, aşiq. [5, s. 179]

Beytlərdən göründüyü kimi, şair aşiqi sevgilinin üzünə düşən gün (işıq), dodağının bənzədiyi gül yarpağı, göydən yağan yağış, yerdən bitən bitki timsalında düşünür. Çəməndəki göy otlar da sevgilisinin ayaq ətri ilə xoşallanır ki, aşiq həmin ot qədər olmağa can atır. Yalnız Füzuli qələmi aşiqin yarına sevgisini bu qədər təbii vermək gücünə qadirdir.

İldırımın çaxması yağışın yağmasından xəbər verən məlum hadisədir. İldırım – od, yağış sudur. İlk baxışda bir-birinin əksi olan bu varlıqları şair suyun oddan törəməsi kimi mənalandırır və könlünün açılmasını ilham aldığı gözəllərin üzündə sevgi atəşindən yaranan tərlə bağlayaraq yazır:

Tərləmiş rüxsar ilə xublar açarlar könlümü,
Gör nə gülşəndir ki, atəşdən verərlər ab ona. [5, s. 48]

Bahar fəslinin gəlişi gecə ilə gündüzü bərabərləşdirir. Şair bu təbəit hadisəsini sevgilisinin vüsalına qovuşmaq, onunla tənləşmək kimi göstəririr:

Qılsa vəslin şamımı sübhə bərabər, yox əcəb;
Rəsmdir fəsli-bəhar olmaq bərabər ruzü şəb. [5, s. 65]

Yaxud yeldə sevgilisinin saçının ətrini, suda üzünün əksini tapması şehin (su qabarcıqlarının) yeli bağrına basması, suya göz dikməsi kimi açıqlayır:

Yeldə bulmuş buyi-zülfün, suda əksi-arizin
Kim, yeli bağrına basıb, suya göz dikmiş hübab. [5, s. 66]

Füzulinin yaratdığı bütün məcazlar sistemi təbiət hadisələrinə dərindən bələdlikdən irəli gəlir. Aşağıdakı beyt buna əyani göstəricisidir:

Xaki-rahindən məni qaldıra bilməz sayə tək,
Qılsa gərdun afitabın hər şüaın bir kəmənd. [5, s. 97]

Məlumdur ki, günəşin şüaları insanı torpaqda kölgə kimi əks etdirir. Bu mənzərədən təsirlənən şair özünü sevgilisinin kölgəsinə, sevgilisinin tellərini isə günəş şüasına bənzədir. Şair sevgilisinə o qədər aşiqdir ki, əgər günəş şüalarını kəmənd edib atsa, onu torpaqdan kölgə kimi qaldıra bilməz.

“Su ki, sərgərdan gəzər, başında vardır bir həva,

Qaliba, bir gülrüxün sərvi-xuramanın sevər” [5, s. 108] beytində isə suyun sərv ağacına tərəf axmasını aşiqin gül üzlü sevgilisinə meyil etməsi kimi canlandırır.

“Nərgisin fikri, Füzuli, gözü könlümdə gəzər,

Tutar ahu vətən ol yerdə ki, otlu, suludur” [5, s. 126] beytində də öz yaradıcılıq üslubuna sadiq qalan şair ceyranın otlu-sulu yerdə məskən saldığı kimi, nərgizə bənzədilən yar fikrinin göz və könlündə gəzdiyini söyləyir.

“Çərx hər ay başına salmış qaşından bir xəyal,

Bu cəhətdəndir hər ay başında olmaq bir hilal” [5, s. 146] beytində o, gözəlin qaşlarını hər ayın başlanğıcında çıxan aYparaya bənzədərək bunu aşiqin başında yurd salmış xəyal kimi mənalandırır.

Bu tipli bənzətmələr, təşbehlər şairin lirik yaradıcılığını səciyyələndirən mühüm xüsusiyyətlərdəndir. Bir neçə beytini verdiyimiz aşağıdakı qəzəldə isə şair sevdiyi gözəli bütün təbiət gözəllikləri ilə müqayisə etməklə onun daha üstün olduğu qənaətinə gəlir:

Qansı gülşən gülbüni sərvi-xuramanınca var?
Qansı gülbün üzrə qönçə, ləli-xəndanınca var?

Qansı gülzar içrə bir gül açılır hüsnün kimi,
Qansı gül bərgi ləbi-ləli-dürəfşanınca var?

Qansı bağın var bir nəxli, qədin tək barvər,
Qansı nəxlin hasili sibi-zənəxdanınca var? [5, s. 115]

Ümumiyyətlə, şair əksər məqamlarda sevgilisinin gözəlliyini təbii varlıqlarla qarşılaşdıraraq verir. Onun üzü laləyə, saçı sünbülə, boyu sərvə, ağlar gözü bulağa, kirpiyi gül tikanına, ağzı qönçəyə, dodağı gül yarpağına, qaşları ay parçasına və s. bənzədilir.

Lakin bütün hallarda o, insan gözəlliyini təbiət gözəlliyinin fövqündə görür. Bu faktdan çıxış edərək klassik ədəbiyyatımızın böyük araşdırıcısı H.Araslı yazır: "*Füzuli insan gözəlliklərini hər şeydən üstün tutur, onun mənəvi qüdrətini, zahiri gözəlliklərini tərənnüm edirdi. O, təbiətin bütün gözəlliklərini şair qəlbilə dərindən duyub gözəlliklərə məftun olduğu halda, insanı daha yüksək qiymətləndirir, bütün bu gözəlliklərini insanın məziyyətləri qarşısında sönük göründüyünü qeyd edir...*" [1, s. 117].

Sevdiyi gözəlin görkəmi, yerişi, duruşu, baxışı yalnız şairin qəzəllərində deyil, digər lirik janrlarda yazdığı əsərlərdə, o cümlədən "Dün sayə saldı başimə bir sərvi-sərbülənd" mətləli müsəddəsində də bütünlüklə təbiət hadisələrinin təsviri fonunda canlandırılır:

Dün sayə saldı başimə bir sərvi-sərbülənd
Kim, qəddi dilrüba idi, rəftarı dilpəsənd.
Göftarə gəldi nagəh açıb ləli-nuşxənd,
Bir püstə gördüm bu dürci-dəhəndir – dedim, dedi:
– Yox, yox, dəvayi-dərdi-nihanındürür sənin!

...Dün sübhdəm ki, laləvü nəsrin salıb niqab,
Gül çöhrəsindən atdı səba pərdeyi-hicab,
Gülzarə çıxdı seyr ilə ol rəşki-afitab,
Şəbnəm nisarın etdi yüküş lölöi-xoşab,
– Bunlar nədir, nə dürri-Ədəndir? – dedim, dedi:
– Əbsəm, Füzuli, əşki-rəvanındürür sənin! [5, s. 339-340].

Böyük Füzuli qəzəllərində təbiət mənzərələrindən gözəlin təsvirini oxucusuna çatdırmaq məqsədilə istifadə edirsə, qəsidələrində ayrı-ayrı fəsillər üzrə təbiətin özünü sanki rəssam fırçasından çıxmış tablo kimi çəkərək söyləyəcəyi başlıca mətləbə bir giriş verir. M.Quluzadə şairin lirik əsərlərində məzmun və forma vəhdətini, təkraredilməz sadəliyi və şeiriyyəti göstərməklə bu xüsusiyyəti ayrıca qeyd edir:

“*Dərin estetik zövqə malik Füzuli təbiətin məftunu və heyranıdır. Lirikanın başqa janrlarına nisbətən qəsidə təsvir və təhkiyə xarakteri daşıyan mövzular üçün daha əlverişli olduğuna görə, şair xüsusilə bu şeirlərində təbiəti tərənnüm etmişdir. Qəzəl kiçik həcmli şeir forması olduğundan təbiət lövhələrinin təsviri üçün əlverişli deyildir, buna görə də şair təbiət gözəlliklərinin tərənnümünə qəsidələrində daha çox yer vermişdir*” [4, s. 276].

Sonuncu peyğəmbərin vəsfinə həsr etdiyi “Su”, “Səba” rədifli qəsidələrinin, Sultan Süleymana ithaf etdiyi “Gül” rədifli qəsidəsinin böyük bir hissəsi məhz təbiət gözəlliklərinin təsviri ilə başlayır ki, bu da oxucuda xoş ovqatın yaradılmasına xidmət edir. Şairin əksər qəsidələrində bahar yeni həyatın, payız–xəzan fəsli isə sonun müjdəçisi kimi əks olunur. Şair bu mövsümlərə xas təbiətin təsvirini insanın ruhi vəziyyəti, psixoloji durumu, əhvalı ilə əlaqədə göstərir. Məsələn:

Yenə açıldı gülü, qıldı cəhani xürrəm,
Çəmənarayi-vücud oldu güli-baği-ədəm. [7, s. 77]

Xəzan içində qalan gül budağiyəm ki, həva
Mənə şikəst verib qalmışam bürəhnəvü xar. [7, s. 39]

Bu təqdimat üslubu söz ustadının “Leyli və Məcnun” poemasında daha qabarıq getmişdir. Leylinin Məcnunla gəzinti zamanı görüş səhnəsi bahar fəslinin təsviri fonunda aşağıdakı şəkildədir:

Bir gün ki, bahari-aləməfruz
Vermişdi cəhanə feyzi-novruz,
Salmışdı niqab çöhrədən gül,
Çəkmişdi sürudi-nalə bülbül.
Şəbnəm meyi-nabi ilə lalə
Doldurmuş idi qızıl piyalə.
Olmuşdu gül ilə səbzeyi-tər
Firuzəfüruz, ləlpərvər. [6, s. 66]

Nakam Leylinin ölüm, həyatla vida səhnəsi isə payız fəslində təbiətin solğunluğu, tükənməsi kimi göstərilir:

Söndü gülü lalənin çırağı,
Sərsər yeli zülmət etdi bağı.
Gül bimi-təərrüzi-həvadan,
Lalə sitəmi-dəmi-səbadan
Rəxtini yaşırdı bağlarda,
Ləlini itirdi dağlarda. [6, s. 208]

Gətirilən bu cüzi faktlar belə bir fikri qüvvətləndirir ki, ən zərif insan duyğularının həssas bilicisi olan Füzuli həm də təbiət gözəlliklərinin mahir təsvirçisidir. Bununla yanaşı, Füzulini ancaq təbiət gözəlliklərini təsvir və tərənnüm edən şair kimi düşünmək olmaz. O həm də "Söhbətül-əsmar" poemasında şərh edildiyi kimi, bağ və bostan bitkilərinin xeyirli və ziyanlı xüsusiyyətlərini verməyi bacarır. Bu alleqorik nəzm əsərində alça, gilas, ərik, armud, alma, üzüm, heyva, narınc, turunc, nar, badam, xurma, püstə, fıstıq, iydə, şabalıd, fındıq, innab, tut, əncir, zoğal, qoz, limon, şaftalı və s. bağ meyvələrindən, xiyar, qovun (yemiş), qarpız və s. bostan bitkilərindən hansının insan üçün daha xeyirli olmasından bəhs edilir.

Ana dilli ədəbiyyatımızın ən qüdrətli şairi kimi, Füzulinin əsərləri həm də gənc nəslin təlim-tərbiyəsində əvəzsiz bir mənbə kimi məktəb dərsliklərinə salınmışdır. Hazırda istifadədə olan 8-ci və 10-cu siniflər üçün "Ədəbiyyat" dərsliklərində də böyük şairin ədəbi irsinə ayrıca yer verilmişdir [2, s. 48-51; 3, s. 79-90]. Lakin əvvəlki illərin dərslikləri ilə müqayisə etdikdə, bu materialların cəmi 2 sinfi əhatə etdiyi üzə çıxır. Vaxtilə aşağı siniflərdə də şairin əsərlərindən təbiətin tərənnümü ilə bağlı mətn parçalarının, uşaqlar üçün xeyli maraqlı "Söhbətül-əsmar" (Meyvələrin söhbəti) poemasının sadələşdirilmiş variantının tədris edildiyi nəzərə alındıqda bu olduqca az görünür. Fikrimizcə, onun yaradıcılığının digər siniflərdə keçilməsi böyük söz ustadının daha geniş təbliğ olunmasına şərait yaradardı.

**Ədəbiyyat**

1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı: Uşaqgəncnəşr, 1956

2. Əliyev S., Həsənov B., Mustafayeva A. [və b.] Ədəbiyyat. Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: Bakı nəşr, 2023

3. Əliyev S., Həsənov B., Mustafayeva A. Ədəbiyyat. Ümumi təhsil müəssisələrinin 10-cu sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: Bakı nəşr, 2022

4. Quluzadə M. Füzulinin lirikası. Bakı: AzSSR EA nəşriyyatı, 1965

5. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. I c. Bakı: Şərq-Qərb, 2005

6. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. II c. Bakı: Şərq-Qərb, 2005

7. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. IV c. Bakı: Şərq-Qərb, 2005

8. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: Çaşıoğlu, 2018